# Dövlətə və xalqa xidmətin ali meyarı

**Xalqımız dünya miqyaslı dövlət xadimi, müstəqil Azərbaycan dövlətinin banisi ulu öndər Heydər Əliyevin anadan olmasının 101 illiyini böyük təntənə ilə qeyd edir. Heydər Əliyev Azərbaycan xalqının yaddaşına müdrik lider, xilaskar, nəhəng quruculuq işlərinin müəllifi və fəaliyyəti ilə Vətənə sədaqətin, bağlılığın ali meyarını yaratmış tarixi şəxsiyyət kimi yazılıb.**

1969-cu ildə Heydər Əliyevin rəhbərlik etməyə başladığı Azərbaycan keçmiş Sovet İttifaqının geridə qalmış aqrar respublikalarından biri idi. Dövrün bütün məhrumiyyətlərinə baxmayaraq, Heydər Əliyevin məqsədyönlü siyasəti nəticəsində qısa zamanda Azərbaycan ittifaq miqyasında inkişaf edən nüfuzlu respublikaya çevrildi, ölkə həyatında sosial-iqtisadi, mədəni yüksəliş baş verdi. Ulu öndərin təşəbbüsü və rəhbərliyi ilə sənayedə əsas fondların 69 faizi yeniləndi. 250-dən çox zavod, fabrik istifadəyə verildi. Əgər 1969-cu ilədək olan dövrdə Azərbaycanda 735 böyük sənaye obyekti tikilmişdisə, Heydər Əliyevin rəhbərliyi dövründə onların sayı 1048-ə çatdırıldı. Sənaye istehsalı və kənd təsərrüfatında əmək məhsuldarlığı 2 dəfə artdı, xalq təsərrüfatında gəlir ümumittifaq göstəricisini 2 dəfə üstələdi.

Heydər Əliyev ölkəmizin kadr potensialının inkişaf etdirilməsi istiqamətində heyrətamiz işlər görmüşdür. Məhz ulu öndərin gərgin səyləri nəticəsində 1971-ci ildə Bakıda C.Naxçıvanski adına ixtisaslaşdırılmış məktəb yaradılmış və milli hərbi kadrların yetişdirilməsinə başlanılmışdı. SSRİ-nin 50-dən artıq şəhərinin 170-dən çox nüfuzlu ali məktəblərində respublikada ən çox ehtiyac duyulan 250-dən artıq ixtisas üzrə 17 minədək azərbaycanlı gəncin təhsil alması təmin olunmuşdu.

Sovet kommunist ideologiyası şəraitində Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycanda sosial-iqtisadi, elmi, mədəni və digər sahələrdə ciddi uğurlar əldə edilməklə yanaşı, milli-mədəni dəyərlərin qorunması, milli yaddaşın dirçəldilməsi və milli özünüdərkin inkişaf etdirilməsi istiqamətində əməli addımlar atılmışdı. Prezident cənab İlham Əliyev ulu öndərin həmin dövrdəki fəaliyyəti haqqında demişdir: "Heydər Əliyev həmişə Azərbaycan xalqının maraqlarını qoruyan bir şəxs olmuşdur və bunu zamana, siyasi vəziyyətə baxmayaraq etmişdir. Sovet Azərbaycanı dönəmində 10 ildən artıq müddətdə Sovet İttifaqının rəhbəri olanda və hətta ideoloji əngəllər çərçivəsində o, Azərbaycan xalqının maraqlarını qoruyurdu və milli kimliyimizi saxlaya bilməyimiz üçün əlindən gələni etməyə çalışırdı. Yetmişinci illərdə və səksəninci illərin əvvəllərində onun tərəfindən atılmış bir çox addıma nəzər salsaq görərik ki, onlar Azərbaycanın müstəqilliyinə hədəflənmişdir".

Heydər Əliyev hər zaman Azərbaycan xalqının milli-mədəni irsinin qorunub saxlanılmasına, bu irsin formalaşmasında böyük rolu olan tarixi şəxsiyyətlərə yüksək diqqət ayırmışdır. 1970-ci illərdən başlayaraq ulu öndərin təşəbbüsü və iştirakı ilə görkəmli söz ustalarının, alim və mütəfəkkirlərin yubileyləri təntənə ilə qeyd edilmişdir.

Ulu öndər yüksək şəxsi keyfiyyətləri və qısa müddətdə respublikada əldə etdiyi böyük uğurlar sayəsində ittifaq miqyasında şöhrət qazandı və 1982-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçildi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin olundu. Heydər Əliyev bu dövrdə də Azərbaycana xüsusi diqqət ayırdı, verdiyi ardıcıl tapşırıqlar, qəbul etdiyi qərarlar onun doğma Vətəni üçün xidmətinin növbəti mərhələsini təşkil etdi.

Mübaliğəsiz demək olar ki, dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycanın keçdiyi yolun hər bir mərhələsinin əsasında 1993-cü ildə yenidən hakimiyyətə qayıtmış ümummilli liderin uzaqgörənliklə hazırladığı milli dövlətçilik strategiyası dayanır.

Dövlət müstəqilliyinin əldə edilməsi xalqların azadlığı yolunda dönüş nöqtəsi hesab olunsa da ulu öndərin dəfələrlə vurğuladığı kimi, "həqiqi müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən qat-qat çətindir". Heydər Əliyev dühası doğma Vətəni parçalanmaq təhlükəsindən xilas etməklə kifayətlənmədi, o, daha böyük amal - Azərbaycanın həqiqi müstəqilliyi uğrunda mübarizə apardı, bütün bilik və bacarığını, imkanlarını səfərbər edərək bu müstəqilliyi əbədi və dönməz etdi.

Heydər Əliyev 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıdışından sonra mürəkkəb geosiyasi vəziyyətə baxmayaraq, tarixə düşmüş "Əsrin müqaviləsi"nin imzalanmasına və həyata keçirilməsinə nail oldu. Azərbaycanın iqtisadi müstəqilliyinin möhkəmlənməsində Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin inşası son dərəcə zəruri faktora çevrildi.

2001-ci ildə ARDNF-in yaradılması ümummilli lider Heydər Əliyevin neft strategiyasının Azərbaycan dövlətinin və xalqının milli mənafeyinin təmin olunmasında mühüm və uzaqgörən addım oldu. Dövlət Neft Fondunu yaradarkən ulu öndər iki əsas prinsipi rəhbər tutmuşdur: təbii sərvətlərin xalqa mənsub olması və şəffaflıq prinsipi.

Heydər Əliyevin təşəbbüsü və bilavasitə iştirakı ilə hazırlanaraq 1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasında ölkə iqtisadiyyatının bazar münasibətləri əsasında inkişafı təsbit edilmişdir. Onu əsas götürərək respublikamızda iqtisadiyyatın bütün sahələrində, o cümlədən aqrar sahədə islahatlara başlanıldı. Torpaq islahatında, habelə sovxoz və kolxozların əmlakının bölgüsündə ədalətli nəticələrə nail olmaq üçün "Torpaq islahatı haqqında", "Aqrar islahatın əsasları haqqında" və "Sovxoz və kolxozların islahatı haqqında" qanunlar qəbul edilərək bu sahədə baza yaradıldı. Heydər Əliyev bu qanunların icrasını təmin etmək üçün müvafiq mexanizmləri əks etdirən bir neçə fərman imzaladı.

Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci ilin noyabrında Bakı şəhərində Dünya Azərbaycanlılarının I Qurultayı keçirildi. Qurultay Azərbaycan diasporunun təşəkkül tapmasında, həmvətənlərimizin yaşadıqları ölkələrdə monolit qüvvəyə çevrilməsində mühüm rol oynadı.

Ümummilli lider Heydər Əliyevin dövlət quruculuğu haqqında fikirləri, ideya və düşüncələri ölkəmizin işıqlı gələcəyinin gerçəkləşməsinə yönəlmişdir. Heydər Əliyev dünyaya siyasətçi kimi gəlmişdi. Siyasət onun yaşayış tərzi, mənəvi tələbatı idi. Ulu öndər azərbaycançılıq ideologiyasının bayraqdarı, yüksək mənəviyyatı, geniş erudisiyası, ali intellektual səviyyəsi olan bir siyasətçi, mahir diplomat və dövlət xadimi idi.

Heydər Əliyevin yaratdığı möhkəm və sarsılmaz təməllər üzərində indi Azərbaycan möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə öz tarixinin ən qüdrətli dövrünü yaşayır. Bu bünövrə üzərində ötən 20 ildə sürətlə inkişaf yolu keçən ölkəmiz indi regionun lideridir, qlobal miqyasda etimadla qarşılanan dövlətdir.

Ulu öndər Heydər Əliyevin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının ən böyük təcəssümü isə əlbəttə ki, 44 günlük Vətən müharibəsində qazandığımız Zəfərdir. Bu Zəfəri xalqımıza yaşadan, Azərbaycanın ərazi bütövlüyünü təmin edən Müzəffər Ali Baş Komandan İlham Əliyev ulu öndərin ən böyük arzusunu həyata keçirdi.

**Ceyhun MƏMMƏDOV,**
**"Azpetrol LTD" MMC-nin baş direktoru,**
**Yeni Azərbaycan Partiyasının üzvü.**